**TARİX VƏ SİYASİ ELMLƏR**

**UOT 327.36**

# "ERMƏNİ SOYQIRIMI"NA QARŞI MÜBARİZƏDƏ TÜRKİYƏ-AZƏRBAYCAN BİRLİYİNİN ƏHƏMİYYƏTİ

**Mübariz GÖYÜŞLÜ***

Məqalə redaksiyaya daxil olmuşdur: 29 fevral 2024; çapa qəbul edilmişdir: 9 aprel 2024; online-da çap edilmişdir: 24 may 2024.

Received: 29th of February, 2024; accepted: 9th of April, 2024; published online: 24th of May, 2024.

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, "erməni soyqırımı", cinayət, işğal, təzminat*

## Giriş

Bir sıra Qərb ölkələri və Rusiya, qondarma "erməni soyqırımı" məsələsini Türkiyəyə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə edirlər. Onlar XIX əsrin sonlarından başlayaraq, Anadoluda əsrlərlə dinc şəkildə yaşayan erməniləri Osmanlıya qarşı silahlı üsyana qaldırmış, yerli insanlara qarşı soyqırımı törətmiş və buna görə cəzalandırılan bir qrup erməni terrorçularının ölümündən bir xalqın 1915-ci ildə qondarma soyqırımı mifini uydurmuşlar. Bu mif, erməni kilsəsinin vasitəsilə xalqın kollektiv şüurunun dərinliklərinə qədər nüfuz etmişdir. Beləliklə, türkofobiya xəstəliyinə düçar edilən erməni xalqı, onu idarə edən kilsənin və hakim zümrənin, həmçinin, onları daha yüksək məqamdan idarə edən qlobal siyasi güclərin maraqları istiqamətində manipulyasiya alətinə çevrilmişlər. Qondarma "erməni soyqırımı" məsələsindən yararlanaraq, Türkiyəyə qarşı ərazi iddiaları irəli sürən və maddi təzminat tələb edən erməni diaspor təşkilatları, əslində, Ermənistanın bir dövlət kimi varlığını təhlükə altında qoyurlar.

## 1. Türkiyədə "erməni soyqırımı" iddialarına qarşı aparılan mübarizə

Qondarma "erməni soyqırımı" məsələsi, Türkiyə və Ermənistan münasibətlərinin daim gərgin qalmasını təmin edir. Əslində, bu gərginliyin davam etməsi bir çox böyük dövlətlərin maraqlarına cavab verir. Bölgədə geosiyasi mövqeyini qorumağa çalışan dövlətlər, bölgənin digər dövlətləri olan Türkiyə, Azərbaycan, Ermənistan arasındakı münasibətlərin normallaşmasında maraqlı deyil. Çünki bu, Türkiyənin Cənubi Qafqaza daxil olması və orada möhkəmlənməsi deməkdir.

Ermənistan-Türkiyə münasibətlərinin yaxşılaşması, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasından keçir. Qondarma "erməni soyqırımı" təzyiqi ilə Türkiyənin Ermənistanın şərtlərinə razılaşdırılması absurddur. Türkiyə cəmiyyəti əmindir ki, "erməni soyqırımı" hadisəsi gerçək deyildir və o, ölkəyə təzyiq vasitəsidir. Lakin, erməni xalqı "erməni soyqırımı" yalanına tam şəkildə inanır və türkləri məhv edən erməni terrorçularını özlərinin milli qəhrəmanı hesab edir. Türkiyə dəfələrlə hər iki tərəfdən arxiv sənədlərinin açılmasını təklif etsə də, erməni tərəfi buna əhəmiyyət verməmişdir. Çünki həqiqətin ortaya çıxması, erməni diasporasının və onun arxasında dayanan bir çox dövlətlərin strateji maraqlarına cavab vermir.

* *dissertant, BDU; AMEA Mərkəzi Elmi Kitabxanası*
*e-mail*: mubariz2011@hotmail.com

Qondarma "erməni soyqırımı" ilə bağlı ermənilərin fəaliyyətini 2005-ci ildən bu günə qədər izləsək, onların bu məsələ ətrafında nə qədər güclü səfərbər olduqlarını və geniş fəaliyyət istiqamətlərinə malik olduqlarını görərik.

2005-ci ildə Türkiyənin Avropa Birliyinə üzvlüyü məsələsi gündəmə gələndə və bu məsələlər ətrafında ciddi müzakirələr başlayanda, türkiyəli yazıçı Orhan Pamuk mətbuatda belə bir bəyanat yaydı: "Biz 30 min kürdü və 1 milyon ermənini qətlə yetirdik. Türkiyədə heç kim bunu dilə gətirməyə cürət etmir. Mən isə edirəm" [15, s.16-17]. Onun bu açıqlamaları cəmiyyəti bir-birinə qarşı duran iki cəbhəyə böldü. Bəziləri onun cəzalandırılmasını istədi, digərləri isə, bunun söz azadlığı olduğunu bildirdi. Beynəlxalq aləm isə, bu ifadəsinə görə, yazıçını Nobel Sülh Mükafatına layiq gördü [14].

2005-ci il martın 1-də parlament qrup toplantısında üç mərhələli siyasətdən bəhs edən CHP rəsmilərinin təklifi Baş nazir Ərdoğan tərəfindən də müsbət qarşılandı. Üç mərhələdə planlaşdırılan siyasətin birinci mərhələsində hər iki ölkədən bərabərhüquqlu tədqiqatçıların iştirakı ilə komissiyanın yaradılması, ikinci mərhələdə digər ölkələrdən də tədqiqatçıların cəlb edilməsi, üçüncü mərhələdə isə, sözügedən komissiyanın nəticələrinin beynəlxalq təşkilat tərəfindən dünya ictimai rəyinə təqdim olunması nəzərdə tutulurdu. CHP "erməni soyqırımı" iddialarında ən mühüm təbliğat kitabı olan "Mavi kitab"ın yenidən araşdırılmasını təklif etdi. Bir çox tanınmış xarici tədqiqatçılar Türkiyəyə səfər etdilər və bu sahədə qərarlar qəbul edildi. "Mavi kitab" ilə bağlı məktubun hazırlanaraq İngiltərə parlamentinə göndərilməsi qərara alındı.

Baş nazir R.T.Ərdoğan Ermənistan prezidenti Köçəryana görülən tədbirlərlə əlaqədar belə bir məktub yazmışdır: "Cənab Prezident, türk və erməni xalqları dünyanın həssas yerində ortaq tarix və qonşu coğrafiyaya malik olmaqla yanaşı, uzun illər birlikdə yaşayıblar. Bununla belə, ortaq tariximizin bir dövrü ilə bağlı şərh və qiymətləndirmədə fərqliliklərimizin olması sirr deyil. Keçmişdə xalqlarımız üçün ağrılı xatirələr qoyan bu fərqlər hələ də ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına şərait yaratmır. Düşünürəm ki, ölkəmizi idarə edənlər kimi bizim ən başlıca vəzifəmiz gələcək nəsillərimizə tolerantlıq və qarşılıqlı hörmətlə dolu sülh və əmin-amanlıq mühiti buraxmaqdır. Cümhuriyyət Xalq Partiyasının sədri, ölkəmizin ana müxalifət partiyasının lideri Dəniz Baykal da bu fikirləri bölüşür. Bu kontekstdə təkcə Türkiyə və Ermənistan arxivlərində deyil, həm də müvafiq üçüncü ölkələrdəki bütün arxivlərdə 1915-ci ildə baş verən prosesləri və hadisələri araşdırmaq və əldə etdikləri nəticələri beynəlxalq ictimaiyyətə açıqlamaq üçün, bir qrup tarixçi və ölkəmizin digər ekspertlərini dəvət edirik. Düşünürəm ki, bu istiqamətdə təşəbbüs nəinki tarixin mübahisəli hissəsinə işıq salacaq, həm də ölkələrimiz arasında münasibətlərin normallaşmasına xidmət edən bir addım olacaqdır. Ümid edirəm ki, gələcək nəsillərə mehriban və daha dinc bir mühit ötürmək məqsədi daşıyan təklifimiz qəbul olunacaq. Arxivlərdə birgə işləmək üçün tarixçilərdən və digər ekspertlərdən ibarət qrup yaratmaq təklifimizi bəyənsəniz, bu təklifin təfərrüatlarını ölkənizlə müzakirə etməyə hazırıq. Hörmətlə" [15, s. 28].

R.T.Ərdoğanın məktubuna Köçəryanın cavabı belə olmuşdur: "Cənab Baş nazir! Məktubunuzu almışam. Həqiqətən də, iki qonşu olaraq biz birlikdə harmoniyada yaşamağın yollarını tapmaq üçün çalışmalıyıq. Bu səbəbdən aramızda əlaqələr qurmaq, sərhədləri açmaq və beləliklə də iki ölkə və iki xalq arasında dialoqa başlamaq üçün ilk gündən sizə əlimizi uzatdıq. Xüsusən də, Avropa qitəsində öz çətin keçmişinə fərqli baxışları olan qonşu ölkələr var. Lakin, bu ölkələr öz fikir ayrılıqlarını müzakirə etməyə davam etsə də, bu, onların açıq sərhədlərə, normal münasibətlərə, diplomatik əlaqələrə, bir-birinin paytaxtlarında nümayəndələrinə malik olmasına mane olmurdu. Keçmişə müraciət etmək təklifiniz günümüzə və gələcəyə müraciəti əhatə etmirsə, təsirli ola bilməz. Faydalı dialoq aparmaq üçün bizə uyğun və əlverişli siyasi mühitin yaradılması lazımdır. İkitərəfli münasibətlərin inkişafı üçün məsuliyyət hökumətlərin üzərinə düşür. Bu məsuliyyəti

tarixçilərin öhdəsinə buraxmağa haqqımız yoxdur. Bu səbəbdən biz əvvəllər ölkələrimiz arasında qeyd-şərtsiz diplomatik münasibətlərin qurulmasını təklif və tövsiyə etmişik. Bu kontekstdə xalqlarımız arasında mövcud olan bütün problemləri həll etmək və konsensusa nail olmaq üçün bu məsələləri müzakirə etmək üçün hökumətlərarası komissiya çağırıla bilər. Hörmətlə" [14].

1915-ci il qondarma "erməni soyqırımı" məsələsinin "beynəlxalq yalan" olduğunu Türkiyə İşçi Partiyasının lideri Doğu Perinçek 2005-ci ildə İsveçrədə bəyan etdi. İsveçrə-Ermənistan Dərnəyi Perinçekin ilk çıxışından sonra (15 iyul 2005) İsveçrə məhkəməsinə müraciət etdi və məhkəmə onu təqsirli bilərək həbs qərarı verdi. Perinçek İsveçrə Federal Məhkəməsinə müraciət edərək cəzanın ortadan qaldırılmasını istəsə də, buna nail olmadı. Perinçek bu dəfə Avropa İnsan Haqları Məhkəməsinə (AİHM) müraciət etdi və o, Perinçekin İsveçrədə həbs olunmasına səbəb olan sözləri, xüsusilə "beynəlxalq yalan" ifadəsini "təxribat" kimi qiymətləndirilməsinə baxmayaraq, soyqırım və deportasiyanın hüquqi bir anlayış kimi səciyyələndirilməsinə qarşı çıxdığına, nitqinin erməni xalqına qarşı nifrət təşkil etmədiyinə qərar verdi [17, s. 27]. AİHM Böyük Palatasının 15 oktyabr 2015-ci il tarixli yekun qərarı ilə Perinçek dəstəkləndi [2].

Qondarma "erməni soyqırımı"nın ortadan qaldırılmasını istəyən sadə ermənilər də daima təzyiqə məruz qalmışlar. 2007-ci ildə Türkiyədə ermənidilli "Aqos" qəzetinin təsisçisi və yazarlarından olan jurnalist Hrant Dink öz redaksiya binasının qarşısında silahlı basqın nəticəsində öldürüldü. Türkiyədə müxtəlif qurum və təşkilatlar tərəfindən qınanılan bu hadisə siyasətçilərin və alimlərin narazılığına səbəb oldu. Soyqırımla bağlı etdiyi çıxışlarla diqqət çəkən Hrant Dink ömrünün son günlərində "Ortaq ağrı" söhbətləri ilə diqqəti cəlb edirdi. Onun mövqeyi erməni diasporunun kəskin etirazları ilə qarşılanırdı. Görünür, onun bu yanaşması, qondarma "erməni soyqırımı"nı tanıyan ölkələrin siyasi elitasını da narazı salırdı. Hrant Dinki öldürənlərin Fətullahçı Terror Təşkilatı (FETÖ) ilə əlaqəsi olduğu iddia edilir. 15 iyul 2016-cı il dövlət çevrilişinə edilən cəhddən sonra bu iddia daha da gücləndi [11].

Türkiyədə Baskın Oran, Cengiz Aktar və Ali Bayramoğlu kimi bir qrup yazar 1915-ci ildə baş vermiş hadisələrə görə ermənilərdən üzr istəmək üçün kampaniyaya başladılar. Bu kampaniyaya ilk reaksiya verən siyasətçi MHP lideri Devlet Bahçeli oldu. O, açıqlamasında üzr istəyəcək bir vəziyyətin olmadığını, heç kimin əcdadlarımızı alçaltmağa, incitməyə haqqı olmadığını, əsl üzrxahlığı ermənilərin etməli olduğunu bildirdi [3].

Baş nazir R.T.Ərdoğan isə, bu məsələyə qarşı sərt çıxış edərək bildirdi: "Yəqin ki, elə bir soyqırım törədəcəklər ki, üzr istəyəcəklər. Türkiyə Cümhuriyyətinin belə bir problemi yoxdur. Əgər cinayət varsa, günahkar üzr istəyə bilər. Mənim və ölkəmin belə problemi yoxdur. Hava nəqliyyatında Ermənistana qapıları açan bizik, erməni kilsəsini bərpa edən bizik. Biz bunu heç nə müqabilində etməmişik. Bunlar nəyinsə əlamətləridir. Prezidentimizin Ermənistana səfəri bir işarədir. Yazarlar belə kampaniyaya başlayıblar deyə, biz buna tabe ola bilmərik, qəbul edə bilmərik. Mən bu kampaniyanı qəbul etmirəm və dəstəkləmirəm. Biz cinayət törətməmişik ki, üzr istəyək. İşlətsəydim, üzr istəyərdim" [9].

Türkiyə və Ermənistan İsveçrədə 10 oktyabr 2009-cu ildə Sürix protokollarını imzaladılar. Lakin, bu protokollar TBMM-də müzakirə edilmədən ləğv olundu. Bu məsələ Türkiyə mətbuatında neqativ hal kimi dəyərləndirildi.

## 2. "Erməni soyqırımı"nın 100 illiyində ermənilərin anti-Türkiyə fəaliyyəti

2011-ci ildə Ermənistanda "Erməni soyqırımının 100-cü ildönümünün keçirilməsinin fəaliyyətinin əlaqələndirilməsi üzrə Dövlət Komissiyasının yaradılması" adlı fərman verildi. Danışıqların məxfiliyi və izləniləcək yol ilə bağlı addımlar atan Sarkisyan 2015-ci ilin hədəf olmadığını, soyqırımın tanınması üçün səylərin davam etdiriləcəyini bəyan edən açıqlamalarına davam etdi.

22-23 aprel 2015-ci ildə İrəvanda keçirilən "Soyqırım Cinayətinə Qarşı Qlobal Forum"da çıxış edən Serj Sərkisyan soyqırımın əvəzinin təzminat və torpaq olduğunu, soyqırımda həlak olan erməniləri ehtiramla yad etdiklərini, qurban olan ermənilərə kömək edənləri unutmadıqlarını ifadə edən açıqlamalar verdi [14].

İrəvanda keçirilən anım mərasimlərinə bəzi ölkələrin, xüsusən də Rusiya və Fransanın dövlət başçıları dəvət olunurdu. Ermənistan hakimiyyəti daha da irəli gedərək, "Eurovision-2015" mahnı müsabiqəsində Ermənistan adına yarışacaq mahnının adını *"Do Not Deny"* (İnkar etmə!) qoymuş və Azərbycanın etirazları nəticəsində mahnının adı *"Face the Shadow"* (Kölgənlə üzləş!) kimi dəyişdirilmişdir.

Türkiyədə də qondarma soyqırım iddiaları ilə bağlı bəzi qurumlar tərəfindən müəyyən tədbirlər təşkil edilmişdir. "Stop-De" platforması, "İstanbul Mədəniyyət və İncəsənət" vəqfi, "Anadolu Mədəniyyət və Araşdırmalar" dərnəyi, "Tarix" vəqfi, "Hrant Dink" vəqfi və "İnsan Haqları Assosiasiyası" Fransa konsulluğu qarşısında mətbuata açıqlama verib və "Soyqırımın 100-cü ildönümünü tanı, üzr istə, təzminat ödə!" şüarları ilə oturaq aksiya keçiriblər [13]. 5-6 mart 2015-ci il tarixlərində TESEV, TOBB Universiteti və ORSAM-ın ev sahibliyi etdiyi toplantıda müxtəlif erməni natiqlər iştirak etmişlər [18].

24 aprel 2016-cı il tarixdə bəzi liberal ziyalıların və bəzi HDP-li deputatların "101 illik rüsvayçılıqla qarşı-qarşıyayıq, ağrı və yası paylaşırıq" – şüarı ilə bağlı yaydıqları mesajlar və açıqlamalar böyük diqqət çəkdi [12].

### 3. II Qarabağ müharibəsinin Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratması

2016-cı ilin aprelində baş vermiş dörd günlük müharibədə Azərbaycan Ermənistan üzərində hərbi üstünlük qazandı. Ermənistan rəsmiləri döyüş ərəfəsində Moskvaya səfər edərək Rusiyadan müharibənin dayandırılması üçün dəstək istədilər və eyni zamanda, Qarabağda baş verən qarşıdurmalara görə Türkiyənin məsuliyyət daşıdığını bəyan edərək türk mallarını boykot edilməsi çağırışını səsləndirdilər. Ermənistanın bu aqressiv davranışlarına və bəyanatlarına qarşı Türkiyə susqun siyasət yürütməyə üstünlük verdi.

2018-ci ildə Ermənistanda inqilab baş verməsi nəticəsində hakimiyyətə gələn Baş nazir Nikol Paşinyan şovinist çıxışlar etməyə başladı. 2019-cu ilin fevralında N.Paşinyan bəyanatla çıxış edərək iki ölkənin hazırkı vəziyyətini belə təhlil etdi: "Eyni zamanda bizim optimist olmaq üçün heç bir əsasımız yoxdur. İkitərəfli münasibətləri ilkin şərt olmadan müzakirə etməyə hazır olduğumuzu bildirsək də, Türkiyə Qarabağla bağlı ilkin şərtlər irəli sürür. Bu münasibət Ermənistan-Türkiyə münasibətləri ilə bağlı ciddi dialoqun qurulması imkanlarını aradan qaldırır. Soyqırımın tanınmasından danışanda sual yarana bilər ki, bu, ilkin şərtdir, ya yox. Soyqırımla mübarizə qlobal təhlükəsizlik məsələsidir. "Erməni soyqırımı"nın tanınması üçün səylərimizi davam etdiririk" [16].

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycanın Ermənistan üzərində əldə etdiyi zəfər, erməniləri hiddətə gətirmişdir. Bu müharibədə Türkiyənin Azərbaycanın yanında olması və onu siyasi baxımdan dəstəkləməsi, Ermənistan mətbuatında və dünya erməni diasporalarının yazılarında yeni "erməni soyqırımı" kimi qələmə verilmişdir. Ermənilər bütün dünyanın diqqətinə çatdırmaq istəyirdilər ki, müsəlman Türkiyə və Azərbaycan bir araya gələrək xristian erməniləri 1915-ci ildə olduğu kimi məhv etməyə çalışır. Hətta, Suriyadan və Pakistandan Qarabağa "müsəlman terrorçu"larını gətirdiklərini irəli sürürdülər. Ermənilərin dilindən səslənən bu yalanları və təxribatları Rusiya, Fransa, ABŞ kimi ölkələrin media qurumları təkrar edirdi. Suriya parlamentinin 2020-ci ildə qondarma "erməni soyqırımı"nı tanımasında da Rusiyanın dolayısı ilə rolu olmuşdur.

Bütün bunlara baxmayaraq, Azərbaycan Türkiyənin də dəstəyi ilə Qarabağ problemini həll edərək regionda yeni geosiyasi reallıqlar yaratmışdı. Prezident İlham Əliyev "CNN Türk" televiziya kanalına müsahibəsində qondarma "erməni soyqırımı"nın siyasi

bir amil olduğunu bildirmişdir: "Sözdə "erməni soyqırımı"nı tanıyan ölkələr Xocalı soyqırımını tanımaq istəmirlər. Onlar saxta tarixi qəbul edirlər. Aydın məsələdir ki, burada da əsas amil siyasi amildir. Amma real soyqırımı görməzliyə vururlar. Bu, ədalətsizlikdir. Biz çoxdandır ki, bu ədalətsizliklə yaşayırıq, buna öyrəşmişik, təəccüb də etmirik" [6].

**Nəticə**

Sovet İttifaqının dağılması ərəfəsində Ermənistanın Azərbaycanın ərazilərini işğal etməsi, onun Türkiyə ilə diplomatik münasibətlər qurmasına mane olmuşdur. Türkiyə iqtisadi əməkdaşlıq üçün, Ermənistana işğal etdiyi əraziləri geriyə qaytarmaq və qondarma soyqırımla bağlı tələblərindən rəsmi imtina etmək şərtlərini irəli sürmüşdür. Lakin Ermənistan, Türkiyə ilə əməkdaşlıq üçün bu şərtləri önə sürməmək şərtini ortaya qoymuşdur. Tükiyə bu şərtlərlə razılaşa bilməzdi. Çünki bir tərəfdən, o, enerji potensialına malik olan qardaş və strateji müttəfiq olan Azərbaycanı itirə bilər, digər tərəfdən, Ermənistanın diqtəsi altında qalan dövlətə çevrilə bilərdi. Eyni zamanda, dünyanın böyük dövlətləri Türkiyədən Ermənistan ilə sərhədlərin açmasını tələb edirdilər. Onlar Türkiyədəki əlaltıları vasitəsilə öz niyyətlərinə nail olmağa çalışsalar da (2009 Sürix protokolları), bu baş vermədi. Azərbaycan və Türkiyənin "bir millət, iki dövlət" olduğu, əməldə sübut edildi. Ermənistan hökuməti mövcud reallığı anlayaraq, iqtisadi baxımdan alternativsiz olan Ermənistan-Türkiyə iqtisadi əməkdaşlığına getmək üçün, müəyyən qədər yumşaq mövqedən yanaşmağın zəruriliyini anladı. Lakin Ermənistan bir zamanlar Rusiya kimi ölkədən asılı olduğu üçün müstəqil siyasət aparmaq iqtidarında deyildi. Ermənistan-Türkiyə münasibətlərinin normallaşması üçün, müstəqil iqtidarın hakimiyyətə gəlməsi lazım idi. 44 günlük Vətən müharibəsində Azərbaycanın böyük zəfəri və Türkiyənin Cənubi Qafqazda mühüm geosiyasi oyunçuya çevrilməsi, buna paralel şəkildə Rusiyanın bölgədə zəifləməsi, yeni iqtisadi dividentlərin əldə olunması imkanları, Ermənistan-Türkiyə münasibətlərinin inkişafı üçün müəyyən ümid yeri yaratdı. Lakin Paşinyan hökuməti Azərbaycan ilə sərhədlərin müəyyən edilməsi, sülh sazişinin imzalanması, Zəngəzur dəhlizinin açılması məsələsini uzatmaqla, bölgədə əməkdaşlıq üçün təhlükə yaradır. Üstəlik, qondarma "erməni soyqırımı" ilə bağlı Türkiyəyə ərazi və təzminat iddialarından da geriyə addım atmır. Bunlar onu göstərir ki, Ermənistan heç zaman müstəqil dövlət olmamış və bölgədə türk xalqlarının birliyinə maneə olmaq üçün böyük güclər tərəfindən ortaya atılmış layihədən bir başqa bir şey deyildir.

## ƏDƏBİYYAT


1. Dövlət başçısı: Sözdə "erməni soyqırımı"nı tanıyan ölkələr Xocalı soyqırımını tanımaq istəmirlər. [Elektron resurs]-URL: (https://ordu.az/az/news/196258/dovlet-bascisi---sozde-ermeni-soyqirimi ni-taniyan-olkeler-xocali-soyqirimini-tanimaq-istemirler-), (14.07.2021).
2. AK Parti Erzurum Milletvekili Orhan Deligöz: Gülen'in babası Ermeni. [Elektron resurs] -Yeni Akit. URL: (https://www.yeniakit.com.tr/haber/ak-parti-erzurum-milletvekili-orhan-deligoz-gule nin-babasi-ermeni-229810.html), (02.11.2016).
3. Aslan Yavuz Şir. AİHM Perinçek-İsviçre Davası: Büyük Daire Doğu Perinçek Lehine Karar Verdi // Avrasya İncelemeleri Merkezi (https://avim. org.tr/tr/Yorum/aihm-perincek-isvicre-davasi-buyuk-daire-dogu-perincek-lehine-karar-verdi), (16.08.2020).
4. Bahçeli'den Özürcü Aydınlara Sert Tepki (https://www.haber7.com /siyaset/haber/365685-bahceliden-ozurcu-aydinlara-sert-tepki), (03.08.2020).

5. Cumhurbaşkanı Gül’ün Bakü Ziyareti. (https://www.sondakika.com/haber/haber-cumhurbaskani-gul-un-baku-ziyareti/), (30.07.2020).
6. Dışişleri Bakanlığı Sözcüsünün Ermenistan Cumhurbaşkanı Sarkisyan’ın Açıklamalarına İlişkin Bir Soruya Cevabı // T.C. Dışişleri Bakanlığı Resmî Sitesi (http://www.mfa.gov.tr/sc_-23_-26-temmuz-2011_-disisleri-bakanligi-sozcusu_nun-bir-soruya-cevabi.tr.mfa),
7. Erdoğan: Azerbaycan-Ermenistan sorunu çözülürse... // Milliyet Gazetesi (https://www.milliyet.com.tr/siyaset/erdogan-azerbaycan-ermenistan-sorunu-cozulurse-1934899), (16.08.2020).
8. Erdoğan'dan Obama ve Sarkisyan'a 'Çanakkale' Daveti // Haberler.com, (https://www.haberler.com/erdogan-dan-obama-ve-sarkisyan-a-canakkale-6872462-haberi/),
9. Erdoğan'dan Ermenilerden Özür Kampanyasına Tepki // Milliyet Gazetesi (https://www.milliyet.com.tr/siyaset/erdogandan-ermenilerden-ozur-kampanyasina-tepki-1029295),
10. FETO, 1965’te yazdığı bu mektupla ‘sözde soykırımı’ tanımış! // Sözçü gazetesi (https://www.sozcu.com.tr/2019/gundem/cep-telefonundan-fetonun-mektubu-cikti-543117 3/),
11. Gazeteci Hrant Dink’e Silahlı Saldırı // Türkiye Cumhuriyeti Cumhurbaşkanlığı Resmî İnternet Sayfası. (https://tccb.gov.tr/basin-aciklamalari-ahmet-necdet-sezer/ 1720/7186/gazeteci-hrant-dinkin-silahli-saldiri)
12. HDP: Ermeni soykırımı utancıyla yüzleşiyoruz. (https://www.gazeteduvar.com.tr/politika/2020/04/24/hdp-ermeni-soykirimi-utanciyla-yuzlesiyoruz)
13. İstanbul’da 24 Nisan Anılıyor // Agos Gazetesi (http://www.agos.com.tr/tr/yazi /11385/istanbul-da-24-nisan-aniliyor)
14. Karacakaya R. Türkiye-Ermenistan İlişkileri ve Türk Siyasetine Yansıması (2000-2015). Yüksek Lisans Tezi, İstanbul, 2020. (http://earsiv.medeniyet.edu.tr:8080/xmlui/bitstream/handle/123456789/451).
15. Ömer Engin Lütem. Olaylar ve Yorumlar // Ermeni Araştırmaları Dergisi, 2006 (https://dergipark.org.tr/tr/download/issue-file/44060)..
16. Paşinyan: Türkiye’nin Karabağ’a Yönelik Tavrı İkili İlişkiler İçin Engel Teşkil Ediyor // Sputnik News (https://tr.sputniknews.com/ortadogu/ 201902281037924726-pasinyan-turkiye-karabagi-yonelik-tavri-ikili-iliskiler-engel-teskil-ediyor/), (05.01.2021).
17. Pazarcı Hüseyin. Perinçek (İsviçre’ye Karşı) Davası (AİHM, 17 Aralık 2013). (https://dergipark.org.tr/tr/pub/erma/issue/43027/520956). Ankara: Ermeni Araştırmaları Dergisi, 2014.
18. TESEV 2015 Faaliyet Raporu // TESEV (https://www.tesev.org.tr/wp-content /uploads/Faaliyet_Raporu_2015.pdf)

**_Резюме_**

***Мубариз Геюшлу***

***Значение союза Турция-Азербайджан в борьбе против «Геноцида Армян»***

В статье разъясняются история и цель так называемого геноцида армян, а также подчеркивается, что этот вопрос призван оказать давление на Турцию. Анализируется, что те, кто поднял тему «геноцида армян», пытаются помешать усилению Турции, укреплению отношений с Азербайджаном, увеличению влияния на Южном Кавказе. Борьба турецкого правительства с этой проблемой с 2005 года и его усилия по объединению историков подверглись тщательному анализу. В ответ было расследовано давление,

оказываемое официальным Ереваном на Турцию с целью добиться открытия границ, снятия эмбарго, прохождения энергетических и логистических линий через Армению. В статье отражено давление на простых армян, желающих ликвидации так называемого геноцида армян, суть убийства журналиста армяноязычной газеты "Акос" в Турции Гранта Динка. В то же время в качестве момента, усиливающего напряженность, было отмечено расширение Арменией своих претензий на гору «Агры» на территории Турции и на восточные провинции Турции с целью еще большего обострения ситуации. Важным моментом в решении проблемы был проанализирован тот факт, что Турция не уступила армянским притязаниям, преодолев все давление и углубив отношения с Азербайджаном. В статье подчеркивается, что победа Азербайджана в 44-дневной Отечественной войне также создала некоторую надежду на развитие армяно-турецких отношений. Государство Турция, которое годами не устанавливало двусторонних отношений с Арменией именно потому, что оккупировало земли Азербайджана, официально заявляет о возможности пересмотра отношений с Ереваном после решения карабахской проблемы. Если правительство Армении правильно оценит эту историческую возможность, то можно будет установить прочный мир на Южном Кавказе и нормализовать турецко-армянские отношения. Однако решению проблемы препятствует поведение правительства Н.Пашиняна по отношению к Азербайджану и его неспособность отказаться от территориальных и компенсационных претензий к Турции в связи с так называемым «геноцидом армян». Это показывает, что Армения – не что иное, как проект, созданный великими державами, чтобы стать препятствием на пути единства тюркских народов региона.

**Ключевые слова**: *Азербайджан, Турция, «геноцид армян», преступление, оккупация, компенсация*

***Summary***

***Mubariz Goyushlu***

***The significance of the Turkey-Azerbaijan union in the fight against the "Armenian Genocide"***

The article explains the history and purpose of the so-called Armenian genocide, and emphasizes that this issue is intended to put pressure on Turkey. It is analyzed that those who brought up the "Armenian genocide" are trying to prevent the strengthening of Turkey, the strengthening of relations with Azerbaijan, and the increase of influence in the South Caucasus. The Turkish government's struggle against this problem since 2005 and its efforts to bring historians together have been extensively analyzed. In return, the pressure exerted by the official Yerevan on Turkey in order to achieve the opening of the borders, the removal of the embargo, and the passage of energy and logistics lines through Armenia was investigated. The pressures on ordinary Armenians who want the elimination of the so-called Armenian genocide, the essence of the murder of the journalist of the Armenian-language "Agos" newspaper in Turkey, Hrant Dink, are reflected in the article. At the same time, Armenia's expansion of its claim to the "Agri" mountain on the territory of Turkey and to the eastern provinces of Turkey in order to make the situation even more tense was highlighted as a point that increases the tension. The fact that Turkey did not give in to the Armenian claims by overcoming all the pressures and deepening the relations with Azerbaijan was analyzed as an important point in solving the problem. The article emphasized that Azerbaijan's victory in the 44-day Patriotic War also created some hope for the development of Armenia-Turkey relations. The state of Turkey, which has not established bilateral relations with Armenia for years precisely because it occupied the lands of Azerbaijan, officially declares the possibility of revising relations with Yerevan after the resolution of the Karabakh problem. If the Armenian government correctly assesses this historical opportunity, it is possible to bring lasting peace to the South Caucasus and normalization of Turkish-Armenian relations. However, the behavior of N. Pashinyan's government towards Azerbaijan and its failure to step back from territorial and compensation claims to Turkey regarding the so-called "Armenian genocide" hinders the solution of the problem. These show that Armenia is nothing more than a project created by great powers to be an obstacle to the unity of the Turkic peoples in the region.

**Key words:** *Azerbaijan, Turkey, "Armenian genocide", crime, occupation, compensation*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d. Qasımov Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.